# Kiçikyaşlı məktəblinin ekoloji mədəniyyəti müasir dövrün əsas tələbi kimi

**Firuzə Samir qızı Əfəndiyeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** efendiyevafiruze2019@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** məktəbli, ekoloji, mədəniyyət, müasir, təhsil, uşaq, dünyagörüşü, şəxsiyyət, tərbiyə, vətəndaş

**Ключевые слова:** школьник, экологический, культура, современный, образование, дети, мировоззрение, личность, воспитание, гражданин

**Key words:** schoolboy, ecological, culture, modern, education, children, worldview, personality, upbringing, citizen

Müasir dövrdə uşaqların qarşısında dayanan əsas problemlərdən biri təbiəti mühafizə etmək və onun qayğısına qalmaqdır. Bunun üçün də ilk olaraq uşaqlarda ekoloji mədəniyyəti formalaşdırmaq gərəkdir.

Yaşadığımız dövrdə ekologiyanın qorunması məsələlərinin dövlət tərəfindən əsas problem olaraq cəmiyyət qarşısında qoyulması uşaqların, gənclərin ekoloji tərbiyəsində yaxşı təsirini göstərir.

"Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan respublikasının Qanununda göstərilib ki: "Təbiətə qayğıkeş münasibət, ekoloji təfəkkürün yaranması əhalidə və gənc nəsildə ekoloji tərbiyə və mədəniyyətin hansı səviyyədə olmasından asılıdır. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ətraf mühitin mühafizəsi və ekoloji təhsillə bağlı qəbul edilmiş ekoloji qanun və qərarlar bu problemin həllində atılmış mühüm addımlardır. Milli Təhsil Konsepsiyasında da gənc nəslin ekoloji təhsil və tərbiyəsinə xüsusi diqqət yetirilir. Müasir dövrdə qloballaşan dünyanın daha çox diqqət yetirdiyi məsələlərdən biri narahatlıq doğuran ekoloji problemlərdir. Əhalinin ətraf mühitə neqativ münasibəti mövcud problemin yaranmasına gətirib çıxarmışdır. Bunun qarşısının alınması üçün hər kəs müəyyən ekoloji biliklərə yiyələnməli, əhalidə ekoloji dünyagörüş formalaşmalı, təhsilin ayrı-ayrı pillələrində ekoloji təlimin həyata keçirilməsi təmin edilməli, məktəb, eləcə də, məktəbəqədər tədris-tərbiyə müəssisələrində uşaqlar və şagirdlər arasında ekoloji tərbiyəyə xüsusi fikir verilməlidir. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (2002) ümumi ekoloji biliklərə yiyələnməsi üçün hər kəsə bərabər şəraitin yaradılması, orta təhsil sistemində ekoloji biliklərin tədrisinin icbariliyi, ekoloji təhsil və maarifləndirmə prosesinin fasiləsizliyi dövlət siyasətinin əsas prinsipləri kimi götürülüb" (1).

Prof. F.N. İbrahimov və R.L. Hüseynzadənin müəllifləri olduqları "Pedaqogika" kitabının ikinci cildində ekologiya və ekoloji tərbiyə haqqında bunları oxuyuruq: ""Ekologiya" yunan sözü olub, yurd (məkan) haqda təlim deməkdir. Ekoloji tərbiyə ahəngdar şəxsiyyət tərbiyəsinin mühüm tərkib hissəsidir. O, gənc nəsli ekoloji biliklərlə silahlandırmağa, ekoloji mədəniyyəti formalaşdırmağa yönələn tədbirlər sistemidir" (3, s. 320).

"Ekoloji tərbiyənin əsasını təbiətə sevgi, onun mühafizəsi işi təşkil edir. İnsan təbiətin bir üzvüdür. Təbiət öz sərvətləri ilə insanı bəsləyir, yaşadır, fiziki və mənəvi qüvvələrini inkişaf

etdirir, ona həyat verir. Lakin bəzən insan öz yaşamaq mənbəyini - təbiəti, ekoloji mühiti korlayır; udduğu havanı, içdiyi suyu, məhsulunu yediyi torpağı zəhərləyir. Bu yolla insanlıq öz-özünü məhvə aparır, özü üçün dəhşətli fəlakətlər, xəstəliklər yaradır. Bunun qarşısını almaq üçün kiçik yaşlardan uşaqları təbiətə qayğılı münasibət ruhunda tərbiyə etmək, ekoloji şüuru və mədəniyyəti formalaşdırmaq lazımdır. Hər bir insan - şəxsiyyət və vətəndaş kimi öz yurdunun, bəşər övladı kimi isə dünyanın ekoloji vəziyyəti və tarazlığı üçün məsuliyyət hiss etməli, onun pozulması hallarına barışmazlıq göstərməlidir. Bu, dünyanın hər bir sakininin insanlıq borcudur" (3, s. 320).

Həmin kitabda həmçinin qeyd olunub ki: "Ekoloji tərbiyədə aşağıdakı vəzifələr həyata keçirilir:

- Böyüyən nəsildə ekoloji şüur formalaşdırmaq;
- Uşaq və gənclərdə doğma təbiətə, ətraf mühitə məhəbbət və qayğılı münasibət, onun korlanmasına qarşı barışmazlıq hissləri aşılamaq;
- Təbiəti mühafizə üzrə zəruri bacarıq və vərdişlər formalaşdırmaq, gənc nəsli fəal ekoloji fəaliyyətə hazırlamaq;
- Məktəblilərin şüurunda və fəaliyyətində təbii ehtiyatlara, maddi sərvətlərə qənaətcil yanaşmaq münasibəti tərbiyələndirmək;
- Təsərrüfat-iqtisadi vəzifələri vicdanla yerinə yetirməyə alışdırmaq;
- Gənc nəsli təbiətin mühafizə işinə cəlb etmək" (3, s. 321).

"Keçmiş inkişaf mərhələsində yaşamış ekoloji problemlərin bünövrəsi üzərində inkişaf edən müasir problemlər XX əsrin axırıncı onilliklərdən başlayaraq qlobal xarakter almışdır. Bu gün ümumbəşəri və ümummilli mahiyyət daşıyan təbiəti mühafizə və təbii sərvətlərdən səmərəli istifadə məsələlərinin həllində ümumtəhsil məktəblərində ekoloji tərbiyə və ekoloji mədəniyyətlərin formalaşdırılması, kiçik yaşlı məktəblilərin ekoloji biliklərinin genişləndirilməsi işinin səmərəli təşkili mühüm əhəmiyyətə malikdir. Məktəb ibtidai sinifdə keçirilən ana dilinin tədrisi prosesində ekoloji təlim-tərbiyə işinin səmərəli təşkili pedaqoji tərbiyə sisteminin mühüm tərkib hissəsini təşkil edir" (2, s. 43).

Uşaqlarda ekoloji mədəniyyəti formalaşdırmaq ilk olaraq ailədən başlamalıdır. Ümumiyyətlə uşaq ilk tərbiyəni ailədən alır. Uşaqda mədəniyyətin formalaşması da birinci olaraq ailədən asılıdır. Uşaq evin, ailənin güzgüsüdür. Valideynlərin, digər ailə üzvlərin mədəni səviyyəsi necə olursa uşaqda da elə olur. Çünki uşaq ailədə dünyaya gözünü açır, ilk təsəvvürləri ailədə yaranır və mədəni düşüncəsinin də təməli ailədə qoyulur. Daha sonra isə orta məktəb uşaqların inkişafına daha çox önəm daşıyır.

Bu haqda "Pedaqogika kitabında oxuyuruq: "Ailədə və uşaq bağçasında aparılan ekoloji tərbiyə işləri məktəbdə daha da inkişaf etdirilir və sistemli şəkil alır. Təlim prosesi ekoloji tərbiyənin çox mühüm yoludur. Ayrı-ayrı fənlərin tədrisində ekoloji təhsil və tərbiyə üçün böyük imkanlar vardır. İbtidai siniflərdə şagirdlər təbiətşünaslıq və ətraf aləmlə tanışlıq dərslərində təbiət və onun mühafizəsi haqqında ilkin təsəvvürlərə yiyələnir, onlarda təbiətə məhəbbət, onu qorumağın vacibliyi fikri aşılanır" (3, s. 323).

"Kiçik yaşlı məktəblilərdə ekoloji tərbiyəni formalaşdırmazdan əvvəl ilk öncə onun komponentlərini müəyyən etmək lazımdır. Ekoloji tərbiyənin komponentlərinə ekoloji şüur, ekoloji bilik, ekoloji təhsil, ekoloji təfəkkür, ekoloji dünyagörüşü, ekoloji fəaliyyət və ekoloji davranış aiddir. Ən mühüm komponentlərdən biri də ekoloji bilikdir" (3, s. 322).

Kiçik yaşlı məktəblilərdə ekoloji tərbiyəni formalaşdırmazdan öncə onları ekoloji biliklərlə silahlandırmaq lazımdır. Həmin əldə edilən ekoloji bilikləri daha yaxşı mənimsəmələri üçün ekoloji bilik və məlumatları şüurlu surətdə dərk etməlidirlər. Belə ki, ekoloji bilik bizi

əhatə edən canlı təbiətin strukturu haqqında olan biliklərdir. Geniş mənada ekoloji biliklər bizi əhatə edən canlı və cansız təbiətin mahiyyəti və dinamikası haqqında elmi məlumatın inteqrasiya olunmuş formasıdır ki, burada Yerin canlı qatının işi və onun biosferinin tamlığı da əhatə olunur" (3, s. 322).

"Kiçik yaşlı məktəblilərə ekoloji biliklərin aşılanması çox mühüm bir prosesdir. Ekoloji biliklərin dərindən mənimsəyən şagirdlər özlərini əhatə edən təbiətdə baş verən hadisələri təhlil etmək bacarığına, təbiətin ayrı-ayrı komponentləri arasındakı səbəb-nəticə əlaqələrini müəyyən etmək qabiliyyətinə malik olurlar" (3, s. 323).

"Ekoloji bilikləri kiçik yaşlı məktəblilərə aşılamaq üçün təlim-tərbiyə proqramında ekoloji mövzulara xüsusi yer verilməlidir. Onlar ətraf mühit anlayışı ilə əlaqədar yaşa müvafiq olaraq biliklər qazanmağa müvəffəq olduqdan sonra təbiətə qayğılı münasibət bəsləməli olacaqlar. Ətraf mühitdən asılı olaraq hər bir canlının həyat tərzi tənzimlənir. Ətraf aləm haqqında sadə informasiyaya malik olan uşaq bilməlidir ki, o, daim ətraf mühitdən asılı olur və onun orqanizminin dəyişməsində, formalaşmasında əsas rol oynayır" (3, s. 323).

"Ekoloji tərbiyə işində müxtəlif yollardan, forma və metodlardan istifadə edilir. Erkən yaşlardan uşaqlarda təbiət hadisələrinə düzgün baxışlar yaratmaq, onlara təbiəti, canlıları sevdirmək, uşaq qəlbində xeyirxahlıq hissləri oyatmaq lazımdır. Kiçik yaşlardan buna diqqət yetirilməzsə, uşaqda təbiətə, heyvan və quşlara qarşı laqeydlik, hətta qəddarlıq, rəhmsizlik hissləri baş qaldıra bilər. Təbiətə qarşı qəddarlıq təbiət gözəlliklərinə laqeydlikdən, ətraf aləmə qeyri-həssas münasibətdən, bir sözlə, uşaq qəlbində xeyirxahlıq hisslərinin kütləşməsindən başlanır" (3, s. 323).

"Ekoloji tərbiyə sahəsində dərslərdə aparılan iş sinifdənxaric və məktəbdənkənar tədbirlər yolu ilə daha da dərinləşdirilir. Yerli şəraitdən asılı olaraq təbiəti mühafizə işinin müxtəlif formalarından istifadə olunur: məktəb meşəçiliyi, gənc təbiətçi dərnək və klubları, məktəb qoruqları, meyvə bağları, şagird istehsalat briqadaları, ekologiya üzrə olimpiada və viktorinalar, məktəb ekologiya cəmiyyəti, ekologiya ayları, ekologiya reydləri və s. belə maraqlı formalardandır. Məktəblərdə və yaşayış yerlərində yaşıllıq iməciliklərinin keçirilməsi, mavi və yaşıl keşikçi dəstələrinin yaradılması, ilk çiçək bayramlarının, meşə və quş günlərinin, təbiət dostları və gənc bağbanların müsabiqələrinin təşkili kimi tədbirləri məktəblərdə ənənə şəklinə salmaq lazımdır" (3, s. 323).

"Müasir dövrdə ümumtəhsil məktəblərində şagirdləri ekoloji biliklə yiyələndirmək təlim-tərbiyə sisteminin vacib tərkib hissələrindən biri olmaqla, həyat bilgisi fənnində, ana dili fənnində və digər fənlərin tədrisində həyata keçirilir.

Kiçik yaşlı uşaqlara ekoloji mədəniyyətin mənimsədilməsi üçün oyunlardan istifadə etmək olar.

"Ekoloji oyunların keçirtməsi texnologiyası isə aşağıdakılardan ibarətdir:

- Müəllim, proqram bölümündən hansı mövzu ilə bağlı ekoloji oyunların keçirtmək üçün seçim edir.
- Ekoloji mədəniyyətin tərbiyə və təliminə dair seçilmiş mövzu ilə bağlı əsas ideyanı, qarşılıqlı münasibətlərin formalaşdırılması üçün yerin seçilməsi.
- Ekoloji oyunun strukturunu və gedişini tərtib edir.
- Pedaqoji sistemin şərtlərinin, seçilmiş mövzu üzrə ekoloji biliklərin effektiv formalaşmasının oyun metoduna əsaslanaraq müəyyən edilməsi.
- Tapşırıqların başlama səviyyəsinin yoxlanması üçün bilik və münasibətlərin formalaşması sisteminin diaqnostikası.
- Kiçik yaşlı məktəblilərin tərbiyəsində ekoloji mədəniyyət oyun metodlarından istifadə

etməklə effektivliyinin yoxlanması üçün kompleks tapşırıqlarının tərtib edilməsi" (4).

Günel Mustafazadə yazır: "Ekoloji Mədəniyyət dedikdə, insanın təbiətə, ətraf mühitə münasibətində qayğıyla yanaşması nəzərdə tutulur. Ekoloji mədəniyyət heç də təkcə yerə zibil atmamaq deyildir, bununla yanaşı enerjidən, sudan, qazdan, eləcə də təbiətdən və ətrafdan, təbii sərvətlərimizdən düzgün və hər birindən lazımı qədər, yəni qənaətlə istifadə etməkdir, təbiətin digər canlılarına da nəvazişlə yanaşmaqdı. Ekoloji mədəniyyətə tıxacda durarkən əlini siqnalın üstünə qoyub saatlarca aləmi səs-küylə bürüməmək (təbiətdə yaranan artıq səs və küylər insanların eşitmə orqanlarını zəiflədir və həmçinin də sinir sistemlərinin pozulmasına səbəb olur) və boşuna benzini yandıraraq zəhərli azot qazlarıyla havanı zənginləşdirməməkdir, balaca uşaqlara heyvanları təpikləməyi yox, onları sevməyi öyrətmək və s. bu kimi misallar aiddir" (5).

Göründüyü kimi, ekoloji mədəniyyətin əsasını kiçik yaşlı məktəblilərdə təbiətə, onun ehtiyatlarından səmərəli istifadəsinə və ətraf aləmin mühafizəsi təşkil edir. Ekoloji mədəniyyətin şagirdlərdə formalaşdırılması işində, onlar yaşadığı ərazinin ekoloji problemlərini və həmçinin dünyanı qlobal səviyyədə narahat edən ekoloji problemləri, onların həlli yollarını bilməlidir.

Təkcə kiçik yaşlı məktəblilər yox, yaşından asılı olmayaraq vətəndaşların hər biri ətraf mühitlə qarşılıqlı əlaqəsi mövcud olmalıdır. Ekoloji mədəniyyəti inkişaf və təbliğ etdirmək lazımdır.

**Məqalənin aktuallığı.** Uşaqları milli-mənəvi, əxlaqi dəyərlərimizə məhəbbət ruhunda tərbiyə eləmək, onları ətraf mühitin qorunmasına və saflaşdırılmasına düzgün istiqamət vermək və ən əsası da onlarda ekoloji mədəniyyəti formalaşdırmaq dövrümüzün mühüm məsələlərindən biridir. Məqalədə də sırf bu cür məsələlərə toxunulduğunu nəzərə alsaq, onu aktual hesab etməliyik.

**Məqalənin elmi yeniliyi.** Məqalədə kiçik yaşlı məktəblilərin ekoloji mədəniyyəti müasir dövrün əsas tələbi kimi geniş aspektdə araşdırmaya cəlb olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Doktorantlar və gənc tədqiqatçılar məqalədən elmi mənbə kimi faydalana bilərlər. Bundan əlavə, məqalə nəzəri və praktik cəhətdən ümumtəhsil müəssisələri, valideynlər və kiçik yaşlı uşaqların tərbiyəsi ilə məşğul olan hər kəs üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002.
2. Həsənli O., Bəylərov T. Şagirdlərin ekoloji tərbiyəsi. Bakı: Mütərcim, 2007.
3. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. 2 cilddə. II cild. Bakı, Mütərcim, 2012.
4. http://www.ecoalem.org/az/?p=445;
5. https://gunelmustafazade.wordpress.com/tag/ekoloji-medeniyyet/.

**Ф.С. Эфендиева**

## Экологическая культура малых школ как главная требование современного возраста

### Резюме

В статье рассматриваются вопросы экологической культуры младших школьников как основного требования современности. Было отмечено, что одна из основных задач - сформировать у юных школьников идею формирования экологической культуры и заботы об окружающей среде. Эти обязанности сначала ложатся на семью, а затем на школу. Каждый должен защищать окружающую среду и беречь природу.

В статье использованы Закон Азербайджанской Республики «Об экологическом образовании и просвещении населения», книга «Экологическое воспитание школьников» под авторством О. Гасанлы, Т. Байларов, учебник «Педагогика» Ибрагимова Ф., Гусейнзаде Р., а также некоторые Интернет-ресурсы.

**F.S. Afandiyeva**

## Ecological culture of small schools as a main demand of the modern age

### Summary

This article discusses the issues of ecological culture of young schoolchildren as a basic requirement of modern times. It was noted that one of the main tasks is to form the idea of ecological culture and care for the environment in young schoolchildren. These responsibilities fall first on the family and then on the school. Everyone must protect the environment and take care of nature.

The article uses the Law of the Republic of Azerbaijan “On ecological education and enlightenment of the population”, the book “Ecological education of students” authored by O. Hasanli, T. Baylarov, the textbook “Pedagogy” by Ibrahimov Firadun, Huseynzade Rufat, as well as some Internet resources.

**Redaksiyaya daxil olub:** 24.09.2020